# Xocalı soyqırımı unudulmur

## Polis şöbəsində tədbir

Fevral ayının 18-də Qəbələ Rayon Polis Şöbəsində Xocalı faciəsinin ildönümü ilə bağlı tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə polis şöbəsinin rəis müavini, polis mayoru Ələddin Nuhov açmışdır. Xocalı faciəsində həlak olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. A. Nuhov bildirmişdir ki, Xocalı faciəsi ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırım hadisəsidir. Azərbaycan xalqı bədnam qonşularımızın başımıza gətirdiyi bu qanlı hadisələri, soyqırım hadisəsini heç vaxt yaddan çıxarmamalıdır.

Xocalı soyqırımının tarixi kökləri və nəticələri barədə danışmaq üçün söz tarixçi, «Qəbələ» qəzetinin əməkdaşı Qüdrət Səmədova verilmişdir. Natiq qeyd etmişdir ki, Xocalı faciəsinin kökləri tarixin lap qədim səhifələrinə kimi uzanır. Ermənilər tarixən qonaq kimi yaşadıqları ərazinin yerli əhalisinə qarşı, xüsusən türklərə və azərbaycanlılara qarşı həmişə xəyanətkar mövqe tutmuşlar. Hələ VIII—IX əsrlərdə ərəb işğalçılarına qarşı uzun illər mərdliklə vuruşmuş xalq qəhrəmanı Babək erməni xəyanətinin qurbanı olmuşdur. Rus çar imperiyasının Qafqazı işğalından sonra erməni xəyanətkarlığı özünü daha qabarıq şəkildə göstərmişdir. Dünyaya səpələnmiş səfil və dilənçi ermənilər rus çarlığının dəstəyi ilə qədim və əzəli Azərbaycan torpaqlarında yerləşdirilmiş, daima xalqımıza qarşı düşmən mövqedə durmuşlar. 1992-ci ilin 26 fevralında erməni qaniçənlərinin Xocalıda törətdiyi soyqırımı əvvəlki qırğınlardan daha qəddar, daha vəhşicəsinə həyata keçirilmişdir.





1994-cü ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən Xocalı faciəsi azərbaycanlılara qarşı erməni vəhşiləri tərəfindən törədilmiş soyqırımı kimi qiymətləndirilmişdir. Təəssüf ki, dünyanın əmin-amanlığına cavabdeh olan beynəlxalq təşkilatlar və «demokratiya jandarmı» Amerika Birləşmiş Ştatları Xocalı soyqırımının həqiqi qiymətini verməmişlər.

Tədbirdə Xocalı sakini, polis mayoru Ramin Kazımov, Qəbələ Rayon Polis Şöbəsi rəisinin müavini Ramin Qədirov və başqaları Xocalı soyqırımı ilə əlaqədar fikirlərini iştirakçılara çatdırmışlar. Hadisələrin şahidi olan Ramin Kazımovun xatirələri, xüsusən, erməni vəhşiliyini bir daha iştirakçıların nəzərində canlandırmışdır.

**«Qəbələ».**

# Bəşəriyyətə qarşı törədilmiş cinayət

1991-ci il oktyabrın 12-də Azərbaycan Respublikası parlamenti tərəfindən dövlət müstəqilliyi barədə konstitusiya aktı qəbul olunduqdan sonra düşmənlərimizin vətənimizə qarşı təcavüzkar siyasəti və hərəkətləri daha da gücləndi. Hər cür xarici himayəyə arxalanan ermənilər Dağlıq Qarabağda daha da fəallaşdılar. Həmin ilin noyabr ayının 21-də Azərbaycan Respublikasının rəhbər heyətinin böyük bir qrupunun mindiyi vertolyotun Dağlıq Qarabağ ərazisində müəmmalı şəkildə partladılması yenicə müstəqilliyini elan etmiş Azərbaycana böyük zərbə oldu. Vertolyotda öz fəaliyyəti ilə cəmiyyətdə müəyyən nüfuz qazanmış xeyli sayda dövlət xadimi həlak oldu. Həmin hadisənin ardınca Dağlıq Qarabağda azərbaycanlılar yaşayan kənd və qəsəbələrin erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılması, insanlara görünməmiş işgəncələr verilməsi daha da sürətləndi. Hər gün neçə-neçə insanın nahaq qanı tökülsə də görünür bu, erməni qaniçənlərini qane etmirdi. Onlar daha çox qan tökmək, dünyada hələ misli görünməmiş qırğın və vəhşilik törətməklə azərbaycanlıların gözünü qorxutmaq üçün plan cızırdılar. Növbəti qurban seçilmişdi. Bu erməni vəhşiliyinin mərkəzinə çevrilmiş Xankəndindən cəmi 12 kilometr məsafədə yerləşən Xocalı şəhəri idi. Xocalı Xankəndində yerləşən Rusiya Federasiyasına məxsus 366-cı moto-atıcı alayın təlim-atış meydanının bir neçə yüz metrliyində olan, strateji cəhətdən əlverişli mövqedə yerləşən yaşayış məntəqəsi idi. Xocalının süqutu Şuşa şəhərinin də təklənməsinə, Ağdamla Şuşa arasında əlaqənin bütünlüklə itirilməsinə gətirib çıxaracaqdı. Buna görə də ermənilər Xocalı şəhərini yer üzündən silməklə bir çox məkrli planlarını rahatca həyata keçirə biləcəkdilər.

Erməni vəhşiləri Xocalı şəhərini görünməmiş qəddarlıqla məhv etməyi planlaşdırarkən Bakıda hakimiyyət davası öz pik həddinə çatmışdı. Hakimiyyətdəkilər hakimiyyətdə qalmaq, meydan qəhrəmanları hakimiyyətə gəlmək uğrunda kəskin mübarizə aparırdılar. Buna görə də Dağlıq Qarabağda bir-birinin ardınca itirilən mövqelər, kənd və qəsəbələr yaddan çıxmışdı.

1991-ci ilin oktyabrından Xocalı şəhəri ilə yeganə əlaqə yalnız vertolyotla mümkün idi. 1992-ci ilin 28 yanvarında Xocalıya sonuncu vertolyot uçdu. Bundan sonra şəhərlə bütün əlaqələr kəsildi. Yanvarın əvvəlindən Xocalıya elektrik enerjisi də verilmirdi. Fevral ayının 25-də gecə ermənilər Xankəndində yerləşən keçmiş SSRİ-yə məxsus 366-cı motoatıcı alayın zirehli texnikasının, zabit və əsgərlərinin köməyi ilə üç tərəfdən Xocalıya hücuma keçdilər. Şəhər 2 saata qədər güclü top, minaatan və raket atəşinə tutulduqdan sonra erməni cəlladları Xocalıya soxuldular. Tarixdə Babiyar, Xatın, Liditse kimi faciələrlə müqayisə olunacaq vəhşilik və soyqırım törədildi.

Şəhərə hücum başlayarkən Xocalıda təxminən 3000 nəfərə qədər adam vardı. Onlardan 613 nəfəri xüsusi amansızlıqla öldürüldü, 487 nəfər şikəst edildi, 1275 nəfər əsir götürüldü, 150 nəfəri itkin düşdü ki, onların taleyindən bu gün də xəbər yoxdur.

Xocalı hadisəsi əsrlərdən bəri erməni cəlladlarının və onların havadarlarının azərbaycanlılara, türklərə qarşı yürüttükləri siyasətin ən qanlı faciələrindən biridir. Bu faciələr XVIII əsrin əvvəllərindən, rus çarı I Pyotrun tapşırığından sonra daha da şiddətlənmişdi.

1724-cü ilin noyabr ayının 10-da I Pyotr erməni katalikosunu sarayında qəbul etmişdir. I Pyotr erməni katalikosuna "Rusiyadan xahişiniz nədir? Nə istəyirsiniz?"—deyə soruşduqda, katalikos: "Biz dağınıq xalqıq, bizi xəzəryanı vilayətlərdə yerləşdirin, biz sizi dəstəkləyərik" deyə cavab vermişdir. I Pyotrın sərəncamı ilə tarixi Azərbaycan torpaqlarında azərbaycanlılar sıxışdırılmış, onların əvəzinə müxtəlif ölkələrdə sərgərdan həyat yaşayan ermənilər yerləşdirilmişdir. Bu siyasətin reallaşması 1813-cü il Gülüstan, 1828-cü il Türkmənçay müqavilələrindən sonra daha sürətli xarakter almış və bu günə qədər davam etməkdədir.

Təəccüblüdür ki, ümummilli lider Heydər Əliyev Azərbaycanda ikinci dəfə 1993-cü ildə hakimiyyətə gələnə qədər Azərbaycanın özündə belə Xocalı faciəsinə siyasi-hüquqi qiymət verilməmişdir. O vaxta qədər iqtidar və müxalifət Xocalı faciəsinin törədilməsində erməni vəhşilərini yox, bir-birini ittiham etməklə kifayətlənmişlər. Bu da erməni dəyirmanına su tökmüşdür.

Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi Xocalı faciəsini ermənilərin azərbaycanlılara qarşı soyqırım hadisəsi kimi qiymətləndirmiş, fevralın 26-nı "Xocalı Soyqırımı Günü" elan etmişdir.

Dəhşətlisi odur ki, dünya dünənini üzərinə götürüb arbitr rolu oynamağa cəhd edən Amerika Birləşmiş Ştatları, onun müttəfiqləri, Avropa Birliyi, Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası özünü hüquq müdafiəçisi adlandıran hansısa bir agentin həbsinə görə əl-ayağa düşdükləri, hədə-qorxu gəldikləri halda, bütöv bir şəhərin orta əsrlər barbarlığını belə keçən üsulla ermənilər tərəfindən yer üzündən silinməsinə göz yumurlar.

Xocalı soyqırımının təşkilatçıları və birbaşa iştirakçıları olan cəlladlar Haaqa Beynəlxalq Məhkəməsi qarşısında oturmalı olduqları halda Ermənistan adlı quldur yuvasında yüksək mənsəb sahibidirlər. Ermənistanın sabiq prezidenti P. Koçaryan, indiki prezident S. Sarksyan, müdafiə naziri S. Ohanyan şəxsən onlarla insanın qətlini həyata keçirmiş, bu qətliama rəhbərlik etmişlər. Bu ədalətsizliyin və cəzasızlığın nəticəsidir ki, dünya xəritəsində qətliamların, tökülən nahaq qanların sahəsi hər gün genişlənməkdədir.

**Qüdrət SƏMƏDOV.**

# 23 il keçsə də...

Yer adlanan planetin gözəl bir güşəsi var. Bu şanlı vətənim, odlar yurdu Azərbaycandır.

Bu yurdun ulu və keşməkeşli tarixi olmuşdur. Hələ bəşər cəmiyyəti yarandığı bir dövrdən bu elin igid oğulları, mərd qızları, şəfalı yaylaqları, şəfalı bulaqları, ucsuz-bucaqsız çölləri, füsunkar təbiəti olmuşdur. Bu misilsiz sərvətə malik olan bir elin düşmənləri də az olmamışdır. Bunlar bədxah qonşularımız ermənilərdir. Hələ keçmiş dövrlərdən Azərbaycanın hər zaman sərvətlərinə, torpaqlarına yiyələnmək istəmişlər. Ulu yurdumun başına çox faciələr gətirmişlər. Bunlardan biri də XX əsrin faciəsi olan «Xocalı faciəsi»dir. Xalqımızın başına gətirilən bu faciədə yüzlərlə insan vəhşicəsinə öldürülmüş və qanları su yerinə axıdılmışdır. Minlərlə insan ev-eşiklərindən didərgin düşmüşdür. Bu təkcə Azərbaycanın, Xocalının deyil, bəşəriyyətin faciəsidir. Bu faciədən 23 il ötür. Lakin bizə elə gəlir ki, bu faciə dünən baş vermişdir.

Artıq XXI əsrdir. Səsi-soragı bütün dünyaya düşən şanlı vətənim Azərbaycan inkişaf etmiş ölkələr sırasındadır. Bu da hər bir Azərbaycan vətəndaşını sevindirir. Mən də bir azərbaycanlı kimi inanıram ki, Azərbaycanımızın əyilməz, yenilməz üçrəngli bayrağı Xocalıda, Şuşada, Qarabağda, digər işğal olunmuş torpaqlarımızda qürurla dalğalanacaqdır. Bu qələbə isə şanlı Azərbaycan tarixində yeni bir səhifə açacaqdır.

**Nigar AĞAYEVA,**
**Mirzəbəyli kəndi.**